# "Əsrin müqaviləsi"nin gələcək perspektivi

*Sovet İttifaqının dağılması ilə Azərbaycan müstəqilliyini bərpa etsə də, yaranan yeni reallıq ölkənin iqtisadi çətinliklərlə üzləşməsinə səbəb oldu. Həmin dövrdə bu vəziyyətdən səmərəli çıxış yolu neft sektorunu inkişaf etdirmək idi. Çünki sözügedən sahə Azərbaycanın zəngin təbii sərvətlərindən biri olaraq iqtisadi inkişaf üçün mühüm potensial vəd edirdi. Amma həmin illərdə ölkənin neft-qaz sənayesi də dərin böhran içərisində idi. Dənizdə neft hasilatı riskli və böyük sərmayə qoyuluşu tələb etdiyindən hətta ABŞ, Böyük Britaniya, Fransa kimi böyük dövlətlər bu məsələdə hasilatın pay bölgüsü prinsipi əsasında birgə çalışırdılar. Bakı neft hasilatını artırmaq və modern texnologiyalardan istifadə etmək üçün böyük xarici investisiyalara ehtiyac duyurdu. Bu da qlobal investorların cəlb edilməsi zərurətini ortaya çıxardı. Amma daxildə və xaricdəki bir sıra qüvvələr Azərbaycanın inkişafını istəmirdilər. Buna görə də ölkədə sabitliyi pozmağa, karbohidrogen ehtiyatlarının işlənməsi məqsədilə xarici investisiyaların cəlb olunmasının qarşısını almağa çalışırdılar.*

Lakin Ulu Öndər Heydər Əliyevin qətiyyəti və müdrikliyi sayəsində bu ssenarilər puç oldu. 1994-cü ilin martında Bakıda xarici neft şirkətlərini dəvət etməklə bağlı danışıqlara başlanıldı, Türkiyənin İstanbul şəhərində davam etdirildi. Amerikanın Hyuston şəhərində 45 gün davam edən danışıqlar isə daha gərgin keçdi. O dövrdə Azərbaycan Dövlət Neft Şirkətinin birinci-vitse prezidenti İlham Əliyev müqavilə üzrə danışıqların son mərhələsinin xüsusilə ağır olduğunu illər sonra açıqladı: "Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələləri xüsusilə ağır keçdi. Bəzən böhran anları da olur, müəyyən şərtlərin qəbuledilməzliyi səbəbindən danışıqlar dayandırılma məqamına çatırdı. Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir".

Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı. 1994-cü il sentyabrın 20-də Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın 10-a yaxın neft şirkəti arasında "Əsrin müqaviləsi" imzalandı. Bu şirkətlər arasında BP, ExxonMobil, Chevron, Total, Statoil, Eni, LukOil, Inpex, Özbəkistan Respublikası Neft və Qaz Sənayesi, Niko Resources yer alırdı. Müqavilənin şərtləri neft hasilatının pay bölgüsünü, investisiya xərclərini və gələcəkdəki inkişaf planlarını əhatə edirdi. İlk dəfə bu müqavilə ilə Azərbaycanın neft istehsalı müasir texnologiyaların tətbiqilə dünya bazarına inteqrasiya olundu. "Əsrin müqaviləsi" çərçivəsində beynəlxalq şirkətlər müasir texnologiyalarını Azərbaycana gətirdi. Bu, neft hasilatının səmərəli və ekoloji cəhətdən daha təmiz həyata keçirilməsinə şərait yaratdı. Ona görə də deyə bilərik ki, məhz "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın neft strategiyasının əsası qoyuldu. Bu sənəd həm də görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin banisi olduğu müasir Azərbaycanın energetika strategiyasının əsas tendensiyasını müəyyən edən və ölkəmizi dünyanın neft ixracatçılarından birinə çevirən özül hesab edilir. Bu baxımdan deyə bilərik ki, bu gün beynəlxalq miqyasda uğurlu model kimi qəbul edilən davamlı inkişaf strategiyasının əsası da məhz sözügedən sənəd ilə qoyulub. "Əsrin müqaviləsi" Heydər Əliyevin bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətidir.

Azərbaycanın iqtisadi inkişafının tərkib hissəsi olan neft strategiyası əsası qoyulduğu 1994-cü ildən bu günə kimi 3 mərhələdən keçdi. 1-ci mərhələni (1995-1997-ci illər) razılıq mərhələsi kimi qeyd edə bilərik. Texniki yenidənqurma, təchizat işlərinin aparılması onun əsasını təşkil edir. 2-ci mərhələ (1997-ci il) neftin hasilatı ilə əlaqədardır. Belə ki, məhz bu ildə "Çıraq" yatağından neft hasilatına başlanıb. 3-cü mərhələ isə (1999-cu il) Azərbaycan neftinin dünya bazarına ixracını ehtiva edir. Çünki həmin ilin dekabrında Azərbaycanın mənfəət nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Ümumiyyətlə, "Əsrin müqaviləsi" ilə həyata keçirilən neft hasilatı Azərbaycanın iqtisadiyyatında mühüm dəyişikliklərə səbəb oldu. Ötən dövr ərzində xarici ticarət dövriyyəsi 10 dəfəyə yaxın artdı. Dövlət büdcəsi 30 dəfəyədək çoxaldı, büdcənin sosial rifahla yanaşı, iqtisadi fəallığın da dəstəklənməsində rolu yüksəldi. Sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artdı, orta aylıq nominal əməkhaqqı isə 12 dəfə yüksəldi. Göründüyü kimi, neft gəlirləri dövlət büdcəsinə əhəmiyyətli töhfələr verməklə yanaşı, sosial infrastrukturun inkişafına və yeni iş yerlərinin açılmasına da imkan yaratdı. Eyni zamanda müqavilə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu artırdı və strateji tərəfdaşlarla əlaqələrin gücləndirilməsinə səbəb oldu. "Əsrin müqaviləsi" sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dan çox sazişin imzalanmasına "yaşıl işıq" yandırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Enerji Həftəsinin iyun ayında baş tutan açılış mərasimindəki çıxışında elə bu məsələyə toxundu: "1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, BP şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş Krallıqdan BP və ABŞ-dan "Amoco" beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər. Dediyim kimi, bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər".

Artıq uzun illərdir Azərbaycan özü tərəfdaşlarına enerji ixrac edir. 2020-ci ilin sonunda Avropaya qaz tədarükünə başlayan Azərbaycan ixracını ildən-ilə artırır. 2023-cü ildə qaz ixracı 10 milyard kubmetri keçdi və 2027-ci ildə bu göstəricinin 20 milyard kubmetrə çatması gözlənilir. Son olaraq, sentyabrın 1-dən SOCAR tərəfindən Xorvatiyaya qaz tədarükünə başlanıldı. Beləliklə, Xorvatiya, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya və Sloveniya ilə birlikdə Azərbaycan qazını alan onuncu ölkə oldu. İtaliyada Beynəlxalq Çernobbio forumunda çıxış edən Prezident İlham Əliyev bildirdi ki, qarşıdakı illərdə Azərbaycandan qaz alan Avropa İttifaqı üzvlərinin sayı da artacaq. Bu, geniş perspektivdə Azərbaycanın enerji sektorunun Avropada vacib rol oynadığını və enerji tədarükünün müxtəlifliyinin regional və qlobal təsirlərini nümayiş etdirir. Üstəlik, ölkənin təsdiq olunmuş qaz ehtiyatları 2,6, proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetrdir. Bu da imkan verir ki, Bakı hələ uzun illər etibarlı enerji təchizatçısı kimi yoluna davam etsin. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi kimi enerji layihələri də Azərbaycanı regionun, o cümlədən Avropanın enerji təminatında açar rolunu oynayan dövlətlərdən birinə çevirir.

"Əsrin müqaviləsi" Azərbaycanın neft sənayesində yeni bir dövrün başlanğıcı oldu. 30 illik tarixçəsi ilə bu müqavilə ölkənin iqtisadi inkişafını, beynəlxalq münasibətlərini və strateji mövqeyini gücləndirdi. Bu müqavilə yalnız neft hasilatı ilə bağlı deyil, həm də Azərbaycanın müstəqil və güclü dövlət kimi formalaşmasında mühüm rol oynadı. Bu baxımdan, "Əsrin müqaviləsi" tarixin yaddaşında əbədi qalacaq bir mərhələdir.

Bununla belə, hazırda dünya miqyasında enerji istehlakına artan tələbat enerji təchizatı modelinin inkişafını və dayanıqlılığını tələb edir. Bu səbəbdən ölkələr karbon emissiyalarını azaltmaq üçün mübarizə aparır və tükənməz enerji mənbələrinə üstünlük verirlər. Texnologiyaların sürətli inkişafı və dövlətlərin iqlim hədəfləri "yaşıl enerji"yə keçidi sürətləndirir. Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindən biri də bu modelə keçiddir. Ölkənin enerji təhlükəsizliyi ilə bağlı, xüsusilə "yaşıl enerji" siyasətinə dair uzunmüddətli hədəfləri mövcuddur. Azərbaycanın əlverişli coğrafi mövqeyi bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadə etməyə imkan yaradır. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" imzaladığı Sərəncam bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasını enerji dayanıqlılığı və qlobal iqlim dəyişmələri məsələlərinin həllinə dəstək məqsədilə həyata keçirir. Bu məqsədlərə nail olmaq üçün Qarabağ və Şərqi Zəngəzurun geniş imkanları var. 10 min kvadratkilometr ərazini əhatə edən "yaşıl enerji zonası"nın 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi potensialı mövcuddur. Ölkənin daxili su ehtiyatlarının təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə yaranır. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda günəş enerjisi potensialı, Laçın və Kəlbəcərin dağlıq ərazilərində isə külək enerjisi potensialı müşahidə edilir. Analizlər göstərir ki, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisi istehsalı mümkündür. Cari dövrdə görülən tədbirlər ölkəmizin gələcəkdə beynəlxalq arenada yalnız neft-qaz deyil, eyni zamanda "yaşıl enerji" ixracatçısı olaraq da tanınacağına işarə edir.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**